AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*12.09 2022–ci il tarixli F-531 № -li*
*əmri ilə təsdiq edilmişdir.*

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ * İNFORMASİYA VƏ VƏTƏNDAŞLARA XİDMƏT ŞÖBƏSİ

# "Arıçı" ixtisası üzrə Təhsil Proqramı (Kurikulum)

**Bakı – 2022**

**“Arıçı” ixtisası üzrə Təhsil Proqramı (Kurikulum)**

1. **Təsnifat üzrə ixtisasın şifri (kodu):** 030306
2. **Məşğulluq təsnifatında kodu:** 6123
3. **Milli kvalifikasiyalar səviyyəsi:** 4
4. **Peşə təhsili pilləsi:** Texniki peşə təhsili
5. **İxtisasın qrupu:** Arıçılıq
6. **İxtisasın əhatə etdiyi sahələr:** Kənd təsərrüfatı
7. **Qəbul şərtləri:** Ən azı ümumi orta təhsil
8. **Tədris müddəti:** Tam orta təhsil bazasından: 1 il, ümumi orta təhsil bazasından 2 il, 3 il.
9. **Attestasiya:** Tələbələrin qiymətləndirilməsi “Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası” na uyğun həyata keçiriləcək.

**Peşənin təsviri, xüsusiyyəti, inkişaf perspektivləri:**

Arıçı praktik olaraq arı ilə işləməyi bacaran şəxsdir. O, arı yuvalarını vaxtı-vaxtında təmizləyir, şan bərkidilmiş çərçivələri pətəklərə qoyur, balalama prosesinə nəzarət edir, arı xəstəliklərini müəyyən edir və müalicə edir, arıların artırılması ilə bağlı fəaliyyətləri həyata keçirir. O, çoxçeşidli arıçılıq məhsullarının istehsalı və satışı ilə məşğul olan peşə sahibidir.

**Məşğulluq imkanları:**

Arıçı peşəsinə yiyələnən şəxslər həm müəssisələrdə çalışa həm də, fərdi sahibkar kimi fəaliyyət göstərə bilər.

**Peşə üzrə səriştə səviyyəsi:**

| Biliklər | Bacarıqlar | Müstəqillik və məsuliyyət |
| --- | --- | --- |
| • Arıçılığın təşkili, arının fiziologiyası və biologiyasıbarədə biliklərə malikdir;<br>• Qidalanması, və xüsusi ehtiyaclarını təmin olunmasıhaqqında qaydaları bilir;<br>• Ziyanverici vəxəstəliklər, onların müalicəsi haqqında qaydaları başa düşür, müxtəlif dərman vasitələri və onlardan istifadə qaydaları ilə tanışdır;<br>• Arı məhsullarının əldə olunması və saxlanması haqqında qaydaları bilir. | • Beçələmə prosesini yerinə yetirir;<br>• Ziyanverici və xəstəlikləri müalicə edir;<br>• Bütün arı məhsullarını əldə edir;<br>• Bütün alət və avadanlıqlardan düzgün istifadə edir;<br>• Arı sancması zamanı ilk yardım göstərir;<br>• Arı ailələrinin qışlamasını təşkil edir. | • Müəyyən iş şəraitində müstəqil və ya nəzarət altında fəaliyyət göstərmək;<br>• Tabeliyindəolan işçilərin fəaliyyətlərini düzgün yerinə yetirilməsinə nəzarət etmək və məsuliyyət daşımaq;<br>• Ondan tələb olunan vəzifə və fəaliyyətləri düzgün yerinəyetirmək və tələb olunduğu fəaliyyəti ilə bağlı halda hesabat vermək |

**Peşə üçün spesifik tələblər:** Arıçı peşəsinə yiyələnmiş şəxs gərgin iş şəraitində işləyə bilməli, fiziki cəhətdən güclü olmalı və yüksək iş gərginliyinə dözməlidir.

**İxtisası tədris edəcək pedaqoji heyətə qoyulan tələblər:**

"Arıçı" ixtisası üzrə tədris aparacaq mühəndis-pedaqoji heyət üzvünün müvafiq peşə-ixtisas sahəsi üzrə baza təhsili (ali, orta ixtisas) və ixtisas üzrə stajı (azı 3 il istehsalat və ya pedaqoji təcrübəsi) olmalı, tədris etdiyi fənlər (istehsalat təlimi ustalarının təhkim olunduğu qrupun) baza ixtisasına uyğun gəlməlidir. Pedaqoji heyət üzvü tələbələr və həmkarları ilə

ünsiyyət qurmaq bacarığına, əlaqələndiricilik, istiqamətvericilik, əməkdaşlıq, tədqiqatçılıq, özünü təhsil və idarəçilik bacarığı, öz fəaliyyətini təqdim etmək və qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnmək bacarığı, ədalətlilik, məsuliyyətlilik və cavabdehlik, xüsusiyyətlərinə malik olmalıdır. Tələbələrin ixtisasları üzrə dövrün tələbatına uyğun elmi-nəzəri bilikli mütəxəssis, tədqiqatçı kimi yetişmələrinə çalışmalı, müasir texnika, yeni istehsal və pedaqoji texnologiyalardan istifadə etmək, innovativ təlim metodlarından, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı aşılamalıdır.

Peşə-ixtisas fənn müəllimlərinin və istehsalat təlimi ustalarının peşələrinə uyğun ən geci 2 ildən bir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi müəssisə və təşkilatlarda yeni texnika və texnologiyalar üzrə istehsalat təcrübəsi keçməlidirlər.

## İxtisasın tədris planı - modulların siyahısı

**İxtisasın adı: Arıçılıq**

**Təhsil müddəti: 1 il (tam orta təhsil )**

| № | Bölmələr, təhsil sahələri, modullar | saatların miqdarı | Həftəlik dərs saatlarının miqdarı | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | I | | II | | | | |
| | | | 5 | 10 | 10 | 3 | 9 | 1 | Məsləhət |
| | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | |
| 1 | Fiziki tərbiyə | 25 | 1 | 1 | 1 | | | | |
| 2 | Peşə etikası | 40 | 2 | 3 | | | | | |
| 3 | Şəxsi inkişaf və karyera planlaşdırması | 40 | 2 | 3 | | | | | |
| 4 | Sahibkarlıq | 40 | | | 4 | | | | |
| 5 | İKT-dən istifadə | 40 | 2 | 3 | | | | | |
| | **Baza modulu üzrə** | **185** | **7** | **10** | **5** | | | | |
| | | | | | | | | | |
| | **Peşə-ixtisas modulları, nəzəri** | **415** | **21** | **15** | **16** | | | | |
| 6 | İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları | 50 | *4* | *3* | | | | | |
| 7 | Arıxana tikililəri, arıçılığın inventar və avadanlıqları | 30 | *6* | | | | | | |
| 8 | Arıçılığın təşkili, arının biologiyası, fiziologiyası, qidalanması və xüsusi ehtiyacları | 50 | *6* | *2* | | | | | 5 |
| 9 | Arı ailələrinin artırılması | 80 | | | *8* | | | | 5 |
| 10 | Arı ailələrinin vəziyyəti, ziyanverici və xəstəlikləri | 70 | *2* | *6* | | | | | 5 |
| 11 | Arı məhsullarının (bal, arı südü, bərəmum, güləm, çiçək tozu) əldə olunması | 55 | *3* | *4* | | | | | 5 |
| 12 | Arı məhsullarının marketinqinin təşkili | 80 | | | *8* | | | | |
| | | | | | | | | | |
| | **İstehsalat təlimi (praktik modullar)** | **440** | **8** | **12** | **16** | **40** | | | |
| | | | | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **360** | | | | | 40 | | |
| | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **1400** | **36** | **37** | **37** | **40** | **40** | | |
| | **Məsləhət saatları** | **20** | | | | | | | 20 |
| | **YEKUN** | **1420** | | | | | | | |

| **İxtisas: Arıçılıq** | | | | | | | | | | | **Məsləhət saatları** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 3 il (ümumi orta təhsil bazası)** | | | | | | | | | | | |
| **№** | **Modullar/Fənlər** | **Saatların miqdarı** | **Kurslar və yarım illər üzrə həftəlik saatların miqdarı** | | | | | | | | |
| | | | **I kurs** | | **II kurs** | | **III kurs** | | | | |
| | | | **18** | **20** | **18** | **20** | **5** | **10** | **10** | **12** | |
| | **Ümumtəhsil fənləri** | | | | | | | | | | |
| 1 | Azərbaycan dili | 268 | 3 | 3 | 3 | 3 | 2 | 2 | 1 | | |
| 2 | Xarici dil | 334 | 4 | 4 | 4 | 4 | 2 | 2 | | | |
| 3 | Riyaziyyat | 344 | 4 | 4 | 4 | 4 | 2 | 2 | 1 | | |
| 4 | İnformatika | 152 | 2 | 2 | 2 | 2 | | | | | |
| 5 | Azərbaycan tarixi | 76 | 1 | 1 | 1 | 1 | | | | | |
| 6 | Fizika | 76 | 1 | 1 | 1 | 1 | | | | | |
| 7 | Biologiya | 76 | 1 | 1 | 1 | 1 | | | | | |
| 8 | Cografiya | 76 | 1 | 1 | 1 | 1 | | | | | |
| 9 | Kimya | 76 | 1 | 1 | 1 | 1 | | | | | |
| 10 | Fiziki tərbiyə | 152 | 2 | 2 | 2 | 2 | | | | | |
| 11 | Çağırışaqədərki hazırlıq | 101 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| | **Ümumtəhsil fənləri üzrə cəm:** | **1731** | **21** | **21** | **21** | **21** | **7** | **7** | **3** | **0** | |
| | | | | | | | | | | | |
| | **Baza modulları** | | | | | | | | | | |
| 13 | Peşə etikası | 40 | | | | 2 | | | | | |
| 14 | Şəxsi inkişaf və karyera planlaşdırılması | 40 | | | | | 2 | 3 | | | |
| 15 | Sahibkarlıq | 40 | | 2 | | | | | | | |
| 16 | İKT-dən istifadə | 40 | | | | | 4 | 2 | | | |
| | **Baza modulları üzrə cəm:** | **160** | **0** | **2** | **0** | **2** | **6** | **5** | **0** | **0** | |
| | | | | | | | | | | | |
| | **İxtisas modulları** | | | | | | | | | | |
| 17 | İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları | 54 | 3 | | | | | | | | |
| 18 | Arıxana tikililəri, arıçılığın inventar və avadanlıqları 1 | 90 | 5 | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 19 | Arıxana tikililəri, arıçılığın inventar və avadanlıqları 2 | 40 | | 2 | | | | | | | 5 |
| 20 | Arıçılığın təşkili, arının biologiyası, fiziologiyası, qidalanması və xüsusi ehtiyacları 1 | 80 | | 4 | | | | | | | 5 |
| 21 | Arıçılığın təşkili, arının biologiyası, fiziologiyası, qidalanması və xüsusi ehtiyacları 2 | 90 | | | 5 | | | | | | |
| 22 | Arı ailələrinin artırılması 1 | 54 | | | 3 | | | | | | |
| 23 | Arı ailələrinin artırılması 2 | 80 | | | | 4 | | | | | |
| 24 | Arı ailələrinin artırılması 3 | 50 | | | | | 4 | 3 | | | |
| 25 | Arı ailələrinin vəziyyəti, ziyanverici və xəstəlikləri 1 | 40 | | | | 2 | | | | | 5 |
| 26 | Arı ailələrinin vəziyyəti, ziyanverici və xəstəlikləri 2 | 60 | | | | | 4 | 4 | | | |
| 27 | Arı məhsullarının (bal, arı südü, bərəmum, güləm, çiçək tozu) əldə olunması 1 | 60 | | | | | 8 | 2 | | | 5 |
| 28 | Arı məhsullarının (bal, arı südü, bərəmum, güləm, çiçək tozu) əldə olunması 2 | 90 | | | | | | | 9 | | |
| 29 | Arı məhsullarının marketinqinin təşkili | 90 | | | | | | | 9 | | |
| 30 | | 0 | | | | | | | | | |
| | **İxtisas modulları üzrə cəm:** | **878** | **8** | **6** | **8** | **6** | **16** | **9** | **18** | **0** | |
| | | | | | | | | | | | |
| | **İstehsalat təlimi** | **968** | **8** | **8** | **8** | **8** | **8** | **16** | **16** | **0** | |
| | | | | | | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **480** | | | | | | | | **40** | |
| | | | | | | | | | | | |
| | **Məsləhət saatları** | **20** | | | | | | | | | 20 |
| | | | | | | | | | | | |
| | **Yekun: Tələbələrin məcburi maksimum dərs yükü** | **4237** | **37** | **37** | **37** | **37** | **37** | **37** | **37** | **40** | |

## Modulların spesifikasiyası

| |
|---|
| **Modulun adı: İKT-dən istifadə** |
| **Modulun kodu: 1** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə işlə əlaqəli məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi, müxtəlif müvafiq mediadan istifadə etməklə peşəkarcasına əlaqə qurmağı və əməkdaşlıq etməyi, peşəkar rəqəmsal məzmun hazırlamağı, İT-dən təhlükəsiz şəkildə istifadə etməyi və texnologiyadan istifadə etməklə problemləri həll etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: İnternetdə məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq məlumat göstəricilərini (verilənlər), məlumat və rəqəmsal məzmunu müəyyən edir. |
| 2. Müvafiq məlumat göstəricilərinin, məlumat və rəqəmsal məzmunun keyfiyyətini dəyərləndirir. |
| 3. Rəqəmsal mühitlərdə məlumat göstəricilərini, məlumatları və rəqəmsal məzmunu idarə edir. |
| **Təlim nəticəsi 2: Sosial media vasitələrindən istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına işləyir. |
| 2. Müvafiq rəqəmsal texnologiyalardan istifadə etməklə məlumat göstəricilərini, məlumat və rəqəmsal məzmunu paylaşır. |
| 3. Rəqəmsal texnologiyalar vasitəsilə öz işlərini yerinə yetirir. |
| 4. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına davranır. |
| 5. Peşəkar şəbəkə vasitəsilə ünsiyyət qurur. |
| 6. Rəqəmsal kimliyi idarə edir. |
| **Təlim nəticəsi 3: Rəqəmsal məzmun hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq formatlarda peşəkar rəqəmsal məzmunu hazırlayır. |
| 2. Yeni müvafiq məzmun hazırlanması üçün mövcud rəqəmsal məzmunu inteqrasiya |

| |
|---|
| edərək uyğunlaşdırır. |

| |
|---|
| **Modulun adı: Şəxsi inkişaf və karyera planlaşdırması** |

| |
|---|
| 3. Müəlliflik hüququ və lisenziyaların məlumat göstəricilərinə, məlumat və rəqəmsal məzmuna necə tətbiq edilməsini təsvir edir. |
| **Təlim nəticəsi 4: İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları qoruyur. |
| 2. Şəxsi məlumat və məxfiliyi qoruyur. |
| 3. Cihazlardan istifadə edərkən sağlamlığını qoruyur. |
| 4. Cihazlardan istifadə edərkən ətraf mühiti qoruyur. |
| **Təlim nəticəsi 5: Sadə texniki problemləri həll edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları işlədərkən yaranmış texniki problemləri həll edir. |
| 2. Texnologiyalardan istifadə etməklə işlə əlaqəli müvafiq ehtiyacları müəyyən edərək, bunların texnoloji həlli yollarını seçir. |
| 3. Öz rəqəmsal bacarılarındakı çatışmazlıqları müəyyən edir. |
| 4. Öz rəqəmsal bacarıqlarındakı çatışmazlıqları aradan qaldırmaq üçün inkişaf planını təqdim edir. |

| |
|---|
| **Modulun kodu: 2** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi, düşünməyi, problemləri həll edərək qərarları qəbul etməyi, karyera məqsədlərini müəyyən etməyi və müasir iş axtarma və müraciət üsullarınıdan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Stresi idarə edir və emosiyaları tənzimləyir. |
| 2. Pozitiv düşünür və özünü qiymətləndirir. |
| 3. Empatiya qurur və dinləyir. |
| 4. Şəxslərarası münasibətləri effektiv idarə edir və mübahisələri həll edir. |
| 5. İnamlı ünsiyyət qurur. |
| **Təlim nəticəsi 2: Düşünməyi və problemləri həll edərək qərarları qəbul etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məqsədlərini müəyyənləşdirir və qərarları qəbul edir. |
| 2. Problemləri həll edir. |
| 3. Tənqidi və yaradıcı düşünür. |
| 4. İcra edir və davamlılığı təmin edir. |
| **Təlim nəticəsi 3: Karyera məqsədlərini müəyyən edir və müasir iş axtarma və müraciət üsullarından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Karyera anlayışının mənasını izah edir. |
| 2. Karyera məqsədlərinin müəyyən edilməsi yollarını araşdırır. |
| 3. Müasir iş axtarma və müraciət üsullarından istifadə edir. |
| 4. Peşəkar inkişafın üsul və mərhələlərinə tətbiq edir. |

| |
|---|
| **Modulun adı: Peşə etikası** |
| **Modulun kodu: 3** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkarlığın əsas prinsiplərini biləcək və vaxtdan səmərəli istifadə etməyi, qrup şəklində işləməyi və iş yerində mövcud davranış qaydalarını təhlil etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkarlıq prinsiplərini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəkarlıq anlayışının nə olduğunu müəyyən edir. |
| 2. Peşəkarlığın əsas kriteriyaları izah edir. |
| 3. Peşəkar davranışın əsas meyarlarını izah edir. |
| 4. Peşəkarlığın karyera inkişafındakı rolunu dərk edir. |
| **Təlim nəticəsi 2: Vaxtdan səmərəli istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Vaxt anlayışını və onun əhəmiyyətinin nədən ibarət olduğunu sadalayır. |
| 2. Vaxtın idarə olunmasındakı əsas yanaşmaları təhlil edir. |
| 3. İdarəetmə funksiyaları və vaxtın idarə olunması arasında əlaqəni izah edir. |
| 4. Vaxtdan səmərəli istifadəyə mane olan əsas əngəlləri aradan qaldırma üsullarını sadalayır. |
| 5. Fərdi vaxt planlaşdırma üsullarını nümayiş etdirir. |
| **Təlim nəticəsi 3: Qrup daxilində səmərəli işləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Öz peşəsi ilə bağlı qruplarda necə işlədiyini izah edir. |
| 2. Səciyyəvi qrup işlərində qrupdakıların rollarını təsvir edir. |
| 3. Qrup işində öz şəxsi rolunu təhlil edir. |
| 4. Öz peşəsi ilə bağlı qrup işində problemlərin nümunələrini nəzərdən keçirir. |
| 5. 4-cü qiymətləndirmə meyarında müəyyən edilən problemlərin həllinə necə kömək edə biləcəyini təsvir edir. |
| **Təlim nəticəsi 4: İş yerində davranış qaydalarını təhlil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Etik davranışın hansı mənanı ifadə etdiyini nümayiş etdirir. |
| 2. İş etikası anlayışını və fərdi etik davranışların nə olduğunu izah edir. |
| 3. Müəssisə və təşkilatlarda gündəlik etik davranış qaydalarını sadalayır. |

| |
|---|
| 4. Ətraf mühiti bir işçi kimi necə qoruya biləcəyini təsvir edir. |
| 5. Müəssisə və təşkilatlarda davranış qaydalarının idarə olunması prinsiplərini müəyyənləşdirir. |

| |
|---|
| **Modulun adı: Sahibkarlıq** |
| **Modulun kodu: 4** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə sahibkarlıq ideyalarını müəyyənləşdirib qiymətləndirməyi, ideyaların həyata keçirilməsi üçün lazımi resursları müəyyənləşdirib toplamağı və ideyaları həyata keçirilməsi yollarını göstərməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Sahibkarlıq ideyalarını, imkanlarını müəyyən etməyi və qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sahibkarlığın mahiyyətini izah edir. |
| 2. Sahibkarlıq fəaliyyəti üçün əlində olan imkanları müəyyən edir. |
| 3. Sahibkarlıq ideyalarını müəyyənləşdirir. |
| 4. Sahibkarlıq ideyasını qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Sadə biznes layihəsini hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Biznes planın məqsəd və strukturunu izah edir. |
| 2. Marketinq planını hazırlayır. |
| 3. Satış və insan resurslarını planlaşdırır. |
| 4. İnvestisiya və maliyyə planını hazırlayır. |
| 5. Büdcəni planlaşdırır. |
| 6. Qeyri-müəyyənlik və risk hallarında necə qərar qəbul edəcəyini təsvir edir. |
| **Təlim nəticəsi 3: Sahibkarlıq ideyalarını necə həyata keçirməli olduğunu göstərir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Yaradılan müəssisənin hüquqi məsələlərini təsvir edir. |
| 2. Sahibkarlıq prosesində başqaları ilə səmərəli əməkdaşlıq üçün nə edəcəyini təsvir edir. |
| 3. Biznes plan hazırlanmasından sonrakı addımlarını müəyyən edir. |

| |
|---|
| **Modulun adı: Fiziki tərbiyə** |
| **Modulun kodu: 5** |

| |
|---|
| **Modulun ümumi məqsədi:** Bu modul tamamlandıqdan sonra tələbə tərbiyəvi prosesdə sağlamlığın yüksəldilməsi, peşə xəstəliklərinin qarşısının alınması, pis vərdişlər, fərdi fiziki inkişaf və sağlam fiziki həyat haqqında zəruri məlumatı biləcək və dövlət standartında müvafiq təlimlərlə nəzərdə tutulan fiziki standartları yerinə yetirmək üçün fərdi olaraq seçilmiş kompleks sağlamlıq və gimnastika məşğələlərini həyata keçirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik hərəkətləri sadə üsullarla icra edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Hərəkətlərin sağlamlaşdırıcı və inkişafetdirici təsirini izah edir. |
| 2. Hərəkətlərin icra şəraiti və icra üsulunun təkmilləşdirilməsi barədə müzakirə aparır. |
| 3. Şəxsiyyətin hormonik inkişafını təsvir edir. |
| 4. Fiziki tərbiyə üzrə nəzəri bilikləri izah edir. |
| **Təlim nəticəsi 2: Fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Aktiv hərəkətlərlə bağlı bacarıq və vərdişlərini nümayiş etdirir. |
| 2. Aktiv hərəkətlərin icrasında əlverişli üsullarından istifadə edir. |
| 3. Aktiv hərəkətlərinə nəzarət edir. |
| 4. Şəraitə uyğun ilkin tibbi yardım göstərir. |
| 5. Bərpaedici vasitələrdən səmərəli istifadə edir. |
| **Təlim nəticəsi 3: İdman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Fiziki hazırlığını artırmaq üçün aktiv hərəkətlərdən və xüsusi vasitələrdən müntəzəm istifadə edir. |
| 2. Yaş qrupuna müvafiq hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |
| 3. Hərəkətlərin icrası zamanı əlverişli metodlar tətbiq edir. |
| 4. Aktiv hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları** |

| |
|---|
| **Modulun kodu: 6** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə Arıçılıqda ətraf mühitin mühafizəsi, yanğın təhlükəsizliyinin əsasları, əməyin təhlükəsizliyinin əsasları, arı ailələrinə baxış keçirilmə texnikası, müxtəlif cinsli arıların davranış xüsusiyyətlərini biləcək və tətbiq etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Fərdi sağlamlıq və təhlükəsizlik qaydaları haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Yanğın təhlükəsizliyinin əsasları haqqında məlumat verir. |
| 2. Arıçılıqda əməyin təhlükəsizliyi əsasları haqqında danışır. |
| 3. Arı ailələrinə qulluq zamanı əməyin təhlükəsizlik qaydalarının əsaslarını izah edir. |
| 4. Arılarla işləyən zaman lazım olan davranış qaydalarını sadalayır. |
| **Təlim nəticəsi 2: İlk yardım qaydaları bilir və tətbiqini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müalicə prioritetlərinin müəyyən edilməsi prosesini düzgün izah edir. |
| 2. İlk yardımın göstərilməsinin zəruriliyini izah edir. |
| 3. Arı sancmasından zərər çəkmiş şəxslərə ilkin yardım göstərməyi nümayiş etdirir. |
| 4. Hadisə baş verən zaman ilkin qiymətləndirmə prosesini düzgün şəkildə nümayiş etdirir. |
| 5. Dərmanlardan və müalicəvi üsullardan istifadə qaydalarını şərh edir. |
| **Təlim nəticəsi 3: Ətraf mühitin mühafizəsi haqqında məlumatları bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arıları, onlara mənfi təsir göstərən amillərdən qoruma qaydalarını şərh edir. |
| 2. Arı sancmasından insanları və heyvanları qoruma qaydaları haqqında danışır. |
| 3. Arıların faydalı təsirini ətraf mühitə yayma qaydalarını izah edir. |
| **Təlim nəticəsi 4: Gigiyena qaydalarını həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İşin gigiyenası haqqında məlumat verir. |
| 2. Xüsusi geyimlərdən düzgün istifadəni nümayiş etdirir. |
| 3. Arıxana avadanlıqlarının düzgün qaydada dezinfeksiyasını nümayiş etdirir. |
| 4. Dərman qabını düzgün qaydada komplektləşdirir. |

| |
|---|
| **Modulun adı: Arıxana tikililəri, arıçılığın inventar və avadanlıqları** |
| **Modulun kodu: 7** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə arıxana tikililəri, arıçılığın inventar və avadanlıqları haqqında biləcək və onların istifadəni bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Şan anbarının quruluşunu qiymətləndirməyi, müxtəlif növlü** |

| |
|---|
| **pətək sistemlərinin, inventar və avadanlıqların istifadəsini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Şan anbarının əhəmiyyətini izah edir. |
| 2. Müxtəlif növlü pətək sistemlərinin necə və harada istifadə edilməsini şərh edir. |
| 3. Pətək və çərçivələrin quruluşunu və onların istifadə qaydalarını izah edir. |
| 4. Arılara qulluq üçün lazım olan alət və avadanlığı seçir. |
| 5. Balsüzən cihazından və mexanizmlərdən düzgün istifadəni nümayiş etdirir. |
| **Təlim nəticəsi 2: Arı şanından istifadəni bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bu əməliyyat üçün lazımi qurğulardan düzgün istifadəni nümayiş etdirir. |
| 2. Arıları, şanları bərpa etməyə məcbur edən amilləri sadalayır. |
| 3. Süni şanı nə vaxt qoymaq lazım olduğunu şərh edir. |
| 4. Süni şandan keyfiyyətini qiymətləndirir. |
| **Təlim nəticəsi 3: Təmir işlərini həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bu əməliyyatları yerinə yetirmək üçün lazımi alətləri seçir. |
| 2. Çərçivələrdə yarıqların açılmasını nümayiş etdirir. |
| 3. Məftilləmə prosesini göstərir. |
| 4. Çərçivələrin şanlanmasını nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Arıçılığın təşkili, arının biologiyası, fiziologiyası, qidalanması və xüsusi ehtiyacları** |
| **Modulun kodu:** 8 |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə arı və onun ailəsinin bütün xüsusiyyətlərini biləcək və arıların müasir pətəklərdə saxlanılması, onların yemlə təmin olunması, qışlamanın təşkili, payız və yaz yoxlanışlarının keçirilməsini və s.ni bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Arıçılığın təşkilini həyata keçirməyi bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arıçılığın təşkili haqqında məlumat verir. |
| 2. Ərazinin bal məhsuldarlığının müəyyən olunması üsullarını izah edir. |
| 3. Arıxana yerinin hazırlanması haqqında məlumat verir. |
| 4. Arı ailəsi və onun faydalı xüsusiyyətlərini izah edir. |
| 5. Arı ailəsinin təşkili və həyat fəaliyyəti haqqında danışır. |
| **Təlim nəticəsi 2: Arı ailələrini bal yığımına hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bal yığımı və onun xüsusiyyətləri haqqında məlumat verir. |
| 2. Arı ailələrinin bal yığımına hazırlığının qaydalarını izah edir. |

| |
|---|
| 3. Arı ailələrinin bal yığımına və bal yığımının istifadəsinə hazırlayır. |
| 4. Müxtəlif arı pətəklərinin istifadəyə yararlılığını düzgün seçir. |
| 5. Çəmənliklər və bitkilər (əsas bal və çiçəktozu verən bitkilər) haqqında məlumat verir. |
| **Təlim nəticəsi 3: Arının biologiyası və fiziologiyasını müəyyən etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arının biologiyasını (quruluşu və həyatı) izah edir. |
| 2. Arının (fiziologiyasını) orqanizmində baş verən dəyişikliklərin sürətinin fərqini müəyyən etməyi və bu göstəriciləri təcrübədə istifadə edir. |
| 3. Arı cinsləri və seleksiyası haqqında məlumat verir. |
| **Təlim nəticəsi 4: Arı ailələrində qidalanma prosesini bilir və həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arıların yemlə təmin olunması qaydalarını izah edir. |
| 2. Arıların yemlənmə prosesini həyata keçirir. |
| 3. Qışlama yerində yemə ehtiyacı olan arıları düzgün qaydada yemləndirir. |
| 4. Balverən bazanın təkmilləşdirilməsi üçün hansı etnomofil bitkiləri əkib-becərmək lazım olduğunu sadalayır. |
| 5. Arı orqanizmini gücləndirmək üçün istifadə olunan müxtəlif vitamin preparatlarını sadalayır. |
| 6. Qışlama üçün pətəyə lazım olan yem ehtiyatının(şəkəri şəkər şərbəti halına gətirmək) hazırlanmasını nümayiş etdirir. |
| **Təlim nəticəsi 5: Arı ailələrinin qışa hazırlığını və qışdan çıxarılmasını həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əsas payız yoxlanışını düzgün qaydada həyata keçirir. |
| 2. Arı ailələrin qışlama yerləri və təşkilini həyata keçirir. |
| 3. Yuvaların qışlamaya hazırlanmasını nümayiş etdirir. |
| 4. Yuvaların düzgün qaydada qısaldılmasını (isidilməsi) həyata keçirir. |
| 5. Qışlama yerində mikroiqlimin (rütubəti, temperaturu) müəyyən edilməsini və tənzimlənməsini nümayiş etdirir. |
| 6. Qışlama yerindən çıxarılmazdan əvvəl düzgün qulluq qaydalarını sadalayır. |
| 7. Pətəklərin qışlama yerindən çıxarılması qaydalarını izah edir. |
| 8. Əsas yaz yoxlanışını nümayiş etdirir. |
| 9. Arıların yerdəyişməsinin (köçürülməsi) zəruriliyini izah edir. |
| 10. Arıxananı köçürülməyə hazırlamağını nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Arı ailələrinin artırılması** |
| **Modulun kodu: 9** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə ana arının ailədəki rolu, ailənin yaşamasının ondan asılılığını biləcək və arı ailəsinin müxtəlif üsullarla artırılmasını bacaracaqdır. |

| |
|---|
| **Təlim nəticəsi 1: Arı ailələrinin artırılmasını həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ana arının müəyyən etmə üsullarını sadalayır. |
| 2. Anasız ana arının çıxarılmasını nümayiş etdirir. |
| 3. Anaların yerləşdirilməsi və əvəzlənməsi prosesinin zəruriliyini izah edir. |
| 4. Ana arının olmasının müəyyən edilmə üsullarını sadalayır. |
| 5. Anasız ailələrin düzəldilməsinin zəruriliyini izah edir. |
| 6. Arı ailələrinin süni və təbii artım üsullarını izah edir. |
| 7. Beçəvermə ilə mübarizə tədbirlərini sadalayır. |
| 8. Arı ailəsi üçün normal mikroiqlim şəraitini yaratmağı nümayiş etdirir. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bal arılarının pətəklərində beçələmə əlamətlərini müəyyən edir. |
| 2. Karantin və bioloji təhlükəsizlik qaydalarını sadalayır. |
| 3. Anaların yerləşdirilməsi və əvəzlənməsini nümayiş etdirir. |
| 4. Arıların süni və təbii beçəvermə qaydalarını izah edir. |
| 5. Beçələrin və arı ailələrinin yaradılmasını izah edir. |
| 6. Erkəkləşmənin səbəbləri və mübarizə tədbirləri (ləğv olunması) həyata keçirir. |

| |
|---|
| **Modulun adı: Arı ailələrinin vəziyyəti, ziyanverici və xəstəlikləri** |
| **Modulun kodu: 10** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə arıçılıq üçün böyük təhlükə yaradan arı ziyanvericiləri, arıların yoluxan və yoluxmayan xəstəlikləri haqqında biləcək və onlara qarşı mübarizə tədbirlərini görməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Arı ailələrinin vəziyyətini müəyyən etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arı ailələrinə düzgün qaydada baxış keçirir. |
| 2. Yüksək keyfiyyətli məhsul almağın şərtlərini sadalayır. |
| 3. Arı ailələrini və şanlarının quruluşunu qiymətləndirir. |
| 4. Arı yuvalarının genişləndirilməsi qaydalarını izah edir. |
| 5. Arıların uçuşunu qiymətləndirir. |
| 6. Məhsuldarlıq amili kimi arı ailəsinin gücünü qiymətləndirir. |
| 7. Arı ailələrinin məhsuldarlığına təsir edən amilləri sadalayır. |
| **Təlim nəticəsi 2: Xəstəliklərə diaqnoz qoymağı bilir və müalicə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arı xəstəlikləri (yoluxan və yoluxmayan) və ziyanvericiləri (mikroorqanizmlər) haqqında məlumat verir. |
| 2. Xəstəliklərin əlamətləri və yaranma səbəblərini izah edir. |
| 3. Zülal distrofiyasının yaranma səbəbləri, mübarizə və müalicə yollarını izah edir. |
| 4. Gəzəngi toksikozunun patogenez və kliniki əlamətlərini sadalamaq və müalicə üsullarını izah edir. |

| |
|---|
| 5. Kimyəvi toksikoz və onun mübarizə yollarını izah edir. |
| 6. Arı ailələrinin dərmansız müalicəsinin nəyə əsaslandığını izah edir. |
| 7. Arıları xüsusi üsullarla və ya onların bioloji xüsusiyyətlərinə müvafiq olaraq müalicə qaydaları haqqında danışır. |
| 8. Hər bir dərmanın təyinatı və təsir etmə xüsusiyyətləri haqqında məlumat verir. |
| 9. Dərmanlı vasitələrlə arıları müalicə etmə üsullarını izah edir. |
| 10. Pətəklərin, şanların və avadanlıqların dezinfeksiyasını nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Arı məhsulları əldə olunması(bal, arı südü, bərəmum, güləm, çiçək tozu)** |
| **Modulun kodu: 11** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə şanların çıxarılması, süzüm yerinə gətirilməsi, süzümün bütün incəlikləri haqqında biləcək və tətbiqini bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Balın süzülməsi prosesi haqqında bilir və həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Balın süzülməsi prosesi üçün hazırlıq işlərini yerinə yetirir. |
| 2. Balın süzülməsinin ardıcıllığnı sadalayır. |
| 3. Arıxanada arıçılıq məhsullarının düzgün emal olunmasını nümayiş etdirir. |
| 4. Süzülmüş balı düzgün qaydada qablaşdırma və saxlanması qaydalarını izah edir. |
| 5. Arı südünün alınması qaydalarını izah edir. |
| 6. Güləmin alınması üsullarını nümayiş etdirir. |
| 7. Çiçək tozunun alınması üsullarını şərh edir. |
| 8. Arı zəhərinin alınması haqqında məlumat verir. |
| **Təlim nəticəsi 2: Arıçılıq məhsulları əsasında hazırlanan müalicəvi vasitələr haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bərəmumdan hazırlanan bir neçə dərman adlarını sadalayır. |
| 2. Arıçılıq məhsullarının əsasında hazırlanan kompozisiyalar haqqında danışır. |
| 3. Çiçək tozunun müalicəvi vasitə kimi istifadəsini şərh edir. |
| 4. Arıçılıq məhsulları əsasında hazırlanan müalicəvi kosmetika məhsullarını sadalayır. |

| |
|---|
| **Modulun adı: Arı məhsullarının marketinqi** |
| **Modulun kodu: 12** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə arıçıya məhsulları satmasına imkan verən bütün əməliyyatları və tapşırıqları biləcək və onları yerinə yetirilməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Arı məhsullarının marketinqini təşkil edir.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Məhsulun qiymətinin hesablanması (istehsal dəyəri, xammal alınması, satış qiyməti, gəlir, arı marketinqi üçün bütün xərcləri və s.) qaydalarını izah edir. |
| 2. Satış zaman qablaşdırılma prosesini nümayiş etdirir. |
| 3. Gəlirin artırılması və xərclərin azaldılması yollarını izah edir. |
| 4. Orqanik sertifikatlaşdırma haqqında danışır. |
| 5. Tozlandırma servisi marketingi haqqında məlumat verir. |
| 6. Propolis, arı südü, bal mumu, çiçək tozu marketinqinin faydalarını sadalayır. |
| 7. Marketinqin dayanıqlığını saxlama yollarını izah edir. |

| |
|---|
| **Modulun adı: İstehsalat təcrübəsi (iş yerində öyrənmə)** |
| **Modulun kodu: 13** |
| **İş yerində öyrənmənin ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə ətraf mühitin qorunması, arı ailələrinin vəziyyəti, ziyanverici və xəstəlikləri, arı ailələrinin artırılması, arı məhsulları hazırlanması və marketinqi haqqında biləcək və tətbiqini bacaracaqdır. |
| **Hüquqi şərtlər və müqavilə:** |
| **Təlim nəticəsi 1: Sağlamlıq, təhlükəsizlik və ətraf mühitin qorunmasına riayət etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arıçılıqda əməyin təhlükəsizliyinə riayət edir. |
| 2. Dərmanlardan və müalicəvi üsullardan istifadə qaydalarını nümayiş etdirir. |
| 3. Xüsusi geyimlərdən düzgün istifadəyə riayət edir. |
| 4. Arıxana avadanlıqlarının düzgün qaydada dezinfeksiyasını nümayiş etdirir. |
| **Təlim nəticəsi 2: Arı ailələrinin vəziyyətini, ziyanverici və xəstəliklərini müəyyən etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arı ailələrini və şanlarının quruluşunu qiymətləndirir. |
| 2. Xəstəliklərə diaqnoz qoyur. |
| 3. Arıları müalicə etmə üsullarını göstərir. |
| 4. Pətəklərin, şanların və avadanlıqların dezinfeksiyasını nümayiş etdirir. |
| **Təlim nəticəsi 3: Arı ailəsinin qışlanmaya hazırlanmasını bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Artıq çərçivələrin pətəkdən çıxarılmasını və növləşdirilməsini göstərir. |
| 2. Arının yem normasını təyin etməyi göstərir. |
| 3. Arı Pətəklərinin istilik rejimini düzgün təşkilini nümayiş etdirir. |
| 4. Arı pətəklərini qışlama binasına köçürməyi nümayiş etdirir. |

| Təlim nəticəsi 4: Arı ailələrinin artırılmasını bacarır. |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Anasız ana arının çıxarılmasını nümayiş etdirir. |
| 2. Beçələmə prosesini həyata keçirir. |
| 3. Anaların yerləşdirilməsi və əvəzlənməsini nümayiş etdirir. |
| **Təlim nəticəsi 5: Arı məhsulları (bal, arı südü, bərəmum, güləm, çiçək tozu) hazırlanması və marketinqi haqqında biləcək və tətbiqini bacaracaqdır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Balın süzülməsini həyata keçirir. |
| 2. Arıçılıq məhsulları əsasında müalicəvi vasitələr hazırlayır. |
| 3. Məhsulun qiymətinin hesablanmasını aparır. |

| **Modulun adı: İstehsalat təlimi (iş yerində öyrənmə)** |
|---|
| **Modulun kodu: 14** |
| **İş yerində öyrənmənin ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə ətraf mühitin qorunması, arı ailələrinin vəziyyəti, ziyanverici və xəstəlikləri, arı ailələrinin artırılması, arı məhsulları hazırlanması və marketinqi haqqında biləcək və tətbiqini bacaracaqdır. |
| **Hüquqi şərtlər və müqavilə:** |
| **Təlim nəticəsi 1: Sağlamlıq, təhlükəsizlik və ətraf mühitin qorunmasına riayət etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arıçılıqda əməyin təhlükəsizliyinə riayət edir. |
| 2. Dərmanlardan və müalicəvi üsullardan istifadə qaydalarını nümayiş etdirir. |
| 3. Xüsusi geyimlərdən düzgün istifadəyə riayət edir. |
| 4. Arıxana avadanlıqlarının düzgün qaydada dezinfeksiyasını nümayiş etdirir. |
| **Təlim nəticəsi 2: Arı ailələrinin vəziyyətini, ziyanverici və xəstəliklərini müəyyən etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arı ailələrini və şanlarının quruluşunu qiymətləndirir. |
| 2. Xəstəliklərə diaqnoz qoyur. |
| 3. Arıları müalicə etmə üsullarını göstərir. |
| 4. Pətəklərin, şanların və avadanlıqların dezinfeksiyasını nümayiş etdirir. |
| **Təlim nəticəsi 3: Arı ailəsinin qışlanmaya hazırlanmasını bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Artıq çərçivələrin pətəkdən çıxarılmasını və növləşdirilməsini göstərir. |

| |
|---|
| 2. Arının yem normasını təyin etməyi göstərir. |
| 3. Arı Pətəklərinin istilik rejimini düzgün təşkilini nümayiş etdirir. |
| 4. Arı pətəklərini qışlama binasına köçürməyi nümayiş etdirir. |
| **Təlim nəticəsi 4: Arı ailələrinin artırılmasını bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Anasız ana arının çıxarılmasını nümayiş etdirir. |
| 2. Beçələmə prosesini həyata keçirir. |
| 3. Anaların yerləşdirilməsi və əvəzlənməsini nümayiş etdirir. |
| **Təlim nəticəsi 5: Arı məhsulları (bal, arı südü, bərəmum, güləm, çiçək tozu) hazırlanması və marketinqi haqqında biləcək və tətbiqini bacaracaqdır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Balın süzülməsini həyata keçirir. |
| 2. Arıçılıq məhsulları əsasında müalicəvi vasitələr hazırlayır. |
| 3. Məhsulun qiymətinin hesablanmasını aparır. |

**Təhsil proqramlarına dair qeydlər**

1. Ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş "Ana dilində ünsiyyət" səriştəsi "Azərbaycan dili", "Xarici dildə ünsiyyət" səriştəsi "Xarici dil", "İnformasiya texnologiyaları" səriştəsi "İnformatika", "Hesablama əməliyyatlarını yerinə yetirmə" səriştəsi isə "Riyaziyyat" fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.
2. Tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda aşağıdakı fənlərin tədrisi 2 (iki) qrupa bölünə bilər:
   2.1. tədris digər dillərdə aparılan siniflərdə "Azərbaycan dili - dövlət dili kimi";
   2.2. tədris dilindən asılı olmayaraq bütün siniflərdə "Xarici dil", "Fiziki tərbiyə".
   2.3. "İnformatika" fənni üzrə praktiki məşğələlər.
3. İnformatika kabineti olmayan peşə təhsili müəssisələrində "İnformatika" fənni üzrə praktik məşğələ keçirilmir.
4. "Xarici dil" fənnində tədrisi nəzərdə tutulan xarici dilin seçimi zamanı tədris qruplarında təhsil alan tələbələrin mütləq çoxluğu nəzərə alınaraq ümumtəhsil pilləsində təhsil aldıqları "əsas xarici dil" əsas götürülür.
5. Tədris ilinin birinci yarısında qrupda tələbələrin sayının azalması tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində qrupun iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.
6. Pilot peşə təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 86 nömrəli qərarı ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında" qərarın 3-cü bəndinə uyğun olaraq tədris qruplarında təhsilalanların sayı 16 nəfərdən çox olduqda, laboratoriya və istehsalat təlimi dərslərində qruplar 2 yarımqrupa bölünə bilər. Pilot peşə təhsil müəssisələrinin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
7. Pilot peşə təhsili müəssisələrində və pilot layihələrdə "Peşə təhsili haqqında" qanunun 11.2. maddəsinə müvafiq olaraq işəgötürənlərin istehsalat təcrübəsinə rəhbər təyin etdiyi mütəxəssislərə təhsil müəssisəsi tərəfindən təcrübə saatları üçün nəzərdə tutulmuş haqq ödənilə bilər. Pilot peşə təhsil müəssisələri və pilot layihələrin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
8. Nəqliyyat vasitələri sürücülərinin hazırlanması həyata keçirən ixtisaslar üzrə tədris Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə" (mövcud dəyişikliklərlə) əsasında, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmış, Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müxtəlif kateqoriyalı avtomobil nəqliyyatı vasitələri sürücülərinin hazırlanması üçün mövcud tədris plan və proqramlarına uyğun aparılır.
9. Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücü hazırlayan ixtisaslar üzrə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının 30 may 2012-ci il

tarixli 05/2012-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin verilməsi haqqında təlimat" (mövcud dəyişikliklərlə) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə" (mövcud dəyişikliklərlə) əsasında, həmçinin traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülərin hazırlanması və onların ixtisasının artırılması proqramı üzrə təlim kursunun tələblərinə uyğun aparılır.

10. Dual və axşam qrupları üçün hazırlanmış tədris planları tətbiq edilən peşə təhsil müəssisələri və qrupların (ixtisasların) siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
11. Kənd təsərrüfatı istiqaməti üzrə olan ixtisasların bəzilərində seçmə modulu kimi təqdim olunan modullar seçilərkən regionun iqtisadi xüsusiyyəti nəzərə alınır.
12. STEM Mərkəzi yaradılmış peşə təhsil müəssisələrində tədris olunan bütün ixtisaslar üzrə həftədə 2 (iki) saat olmaqla "Stem" fənni əlavə olaraq tədris olunur.